Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

# Siyasi partiyaların könüllü özünü buraxma qərarı - siyasi mədəniyyətin yeni təzahürü...

**Bizim cəmiyyət olaraq ən çox müzakirə etdiyimiz məsələlərdən biri siyasi mədəniyyətlə bağlı olur. Hansısa siyasi partiyalardan, qurumlardan, siyasi liderlərdən, təşkilat rəhbərlərindən danışarkən siyasi mədəniyyət sözünü çox işlədirik. Çoxlarımız hesab edirik ki, siyasi mədəniyyət dildə deyil, əməldə özünü göstərsin.**



**Siyasi mədəniyyət nədir və biz onu nə üçün əməldə görmək istəyirik...**

Əvvəlcə, siyasi mədəniyyət anlayışının özünə baxaq: Mənəvi mədəniyyətin tərkib hissəsi olan siyasi mədəniyyət politologiya elminin mühüm anlayışlarından biridir. Siyasi mədəniyyət anlayışı iki mənada işlənir. Geniş mənada siyasi mədəniyyət bəşər cəmiyyətinin yaratmış olduğu ümumi mədəniyyətin bir hissəsi kimi işlənir. Yəni bu halda iqtisadi mədəniyyət, dini mədəniyyət, əxlaqi mədəniyyət və s. kimi hər bir cəmiyyətdə siyasi mədəniyyət də mövcuddur. Onlar bir-biri ilə sıx bağlıdır. Dar mənada siyasi mədəniyyət hər bir fərdin, sosial qrupun, sinfin və ya millətin siyasi davranış və fəaliyyət qaydalarının, onların siyasətdə, siyasi hakimiyyətə münasibətlərinin ifadəsi kimi başa düşülür.

**Azərbaycanda siyasi mədəniyyətin hansı formalarını görürük?**

Qeyd etdiyimiz kimi, siyasi mədəniyyət anlayışını daha çox siyasət qurumlarına, siyasi şəxslərə aid edirik. Çoxlarımız siyasi mədəniyyəti siyasi partiyalara bağlasaq da, bəzi fikirlərə görə, siyasi mədəniyyətin inkişafını təkcə siyasi partiyaların üzərinə qoymaq olmaz, burada cəmiyyətin də ayrıca rolu olmalıdır.

Azərbaycanda siyasi mədəniyyət formalaşdıqca və inkişaf etdikcə, siyasi partiyalar arasında elənmə prosesi gedir. Bəzi siyasi partiyalar bu aləmdə qalmaq istəməyib özlərini buraxırlar.

Mətbuatda gedən məlumata görə, özünü buraxan partiyaların sayı 15-ə çatıb.

Yazılanlara görə, 2009-cu ildə dövlət qeydiyyatına alınan Aydınlar Partiyası fəaliyyətini dayandırıb. Bununla da Azərbaycanda özünü buraxan partiyaların sayı 15-ə çatıb.

Bu barədə partiyanın növbədənkənar qurultayında qərar qəbul olunub.

Partiyanın sədri Qulamhüseyn Əlibəyli buraxılmanın konkret səbəbini açıqlamayıb.

Qeyd edilənə görə, 2022-ci ildə Azərbaycanda 59 siyasi partiya qeydiyyatda olub. Mart ayının əvvəlindən partiyalar özünü buraxmağa başlayıb. Belə ki, Müstəqil Xalq Partiyası (MXP), Azərbaycan Milli Demokrat Partiyası (AMDP), Yeni Yol Partiyası, Azərbaycan Respublikaçılar Partiyası, Müstəqil Azərbaycan Partiyası, Azərbaycan Vahid Kommunist Partiyası, Azərbaycan Sosial Demokrat Partiyası (ASDP), Azərbaycan Liberal Demokrat Partiyası (ALDP), Milli Vəhdət Partiyası (MVP), Azərbaycan Sosial Rifah Partiyası (ASRP), Azərbaycan Naminə Alyans Partiyası (ANAP), Azərbaycan Təkamül Partiyası, Birlik partiyası və Azərbaycan Azad Respublikaçılar Partiyası öz hüquqi fəaliyyətlərinə xitam vermək barədə qərar qəbul ediblər.

Özünü buraxan partiyaların əksəriyyətinin bəyanatında qeyd edilib ki, onlar bu addımı yeni siyasi şəraitdə və reallıqda dövlətçilik, milli birlik naminə atırlar.

**Özünü buraxan partiyaların bu addımını siyasi mədəniyyətin təzahürü saymaq olarmı?**

"Müasir İnkişaf" Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü bizimlə söhbətində bildirdi ki, siyasi partiyaların bu addımı təqdirəlayidir. "Bir neçə partiyanın özünüburaxmasını müsbət dəyərləndirirəm. Çünki ictimai təşkilatların sayının çox olmasının faydası olsa da, siyasi partiyaların sayının çox olması o qədər də məqsədəuyğun deyil. Dövlətçilik, milli həmrəylik naminə bəzi partiyaların özünü buraxması ilə bağlı qərarını faydalı sayıram. Nəzərə alsaq ki, o partiyaların müəyyən qisminin fəaliyyəti elə də parlaq görsənmirdi. Hesab edirəm ki, müasir dövrdə siyasi partiyaların fəaliyyəti bir qədər fərqli olmalıdır. Müxtəlif məsələlərdə aktivlikləri təqdir oluna bilər. Yəni sosial şəbəkələr üzərindən hansısa çıxışlarla gündəmdə qalmaq siyasi partiyaların fəaliyyətinə elə də effektiv təsir edə bilməz, bunun nəticəsi olmaz. Ümumikdə, götürdükdə, bir-iki partiyanı çıxmaq şərti ilə ölkəmizdə əksər siyasi partiyalar dövlətçilik və milli maraqlar, milli həmrəylik naminə birlik, dövlətə sədaqət nümayiş etdirə bilirlər. Onlar dövlətə qarşı deyil, hakimiyyətə və iqtidara qarşı müxalif rolunda çıxış edə bilirlər. Bir neçə partiya isə özünü hakimiyyətyönümlü ?lan ediblər, o istiqamətdə çalışmalar həyata keçirirlər"-deyə bildirən M.Göyüşlü qeyd etdi ki, biz 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların dövlətçiliyə sadiqliyini dövlətə göstərdikləri dəstək bəyanatında gördük.

M.Göyüşlünün sözlərinə görə, Azərbaycanda siyasi partiyaların fəaliyyəti üçün qanunvericilik təkminləşdirilir. Bu qanunvericiliyə uyğun fəaliyyət göstərə bilənlər davam edəcəklər, davam edə bilməyənlərin də başqa formatda çıxış etmələri özünü göstərə bilər: "Hesab edirəm ki, qanunvericiliyin təkminləşməsi Azərbaycanda siyasi partiyaların, siyasi təşkilatların inkişafı üçündür. Azərbaycan dövlətinin siyasi partiyaları dəstəkləyən qərarlar qəbul etməsi, onlara maliyyə vəsaitinin ayrılması, ofis şəraitlərinin yaxşılaşdırılması məsələsini görə bilirik".

M.Göyüşlü qeyd etdi ki, bu sahədə islahatların həyata keçirilməsində siyasi partiyaların dəstəyi özünü göstərir. O, həmçinin bildirdi ki, siyasi partiyaların özünü buraxması isə siyasi mədəniyyət nümunəsidir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**